# Türk xalqlarının folklorunda andlar (yeminlər) (İraq-türkman örnəkləri əsasında)

**Ülkər Dadaşova**
*fəlsəfə doktoru proqramı üzrə dissertant,*
*AMEA-nın Folklor İnstitutu*
**E-mail:** d_ulker@mail.ru

**Rəyçilər:** filol.ü.f.d., dos. A.X. Ramazanova,
filol.ü.f.d., dos. Ş.Ə. Albalıyev

**Açar sözlər:** and, and içmə vasitələri, andın mənaya görə qruplaşması
**Ключевые слова:** клятва, средства клятво приношения, группировка клятв по смыслу
**Key words:** Oath, Means of Taking Oaths, Dividing Oaths to Categories by Meanings

Andlar hər hansı bir insanın öz gələcək məramında düzgün olduğunu əsaslandırmaq, isbat etmək üçün ya öz aralarında, ya da kütlə qarşısında olan mərasimdə müəyyən hərəkətlər vasitəsi ilə özünün təsdiqidir (3, 56). Müqəddəs varlıqlara inanan qədim insanlar bu varlıqlara and içmiş və andı da müqəddəs saymışdır. (5, 13). Türk aləmində olan andlar və bununla bağlı olan mərasimlər e.ə. V–IV əsrlərdə İskit and mərasimləri ilə eyni olduğu məlumdur (7, 98).

Bütün türk xalqları üçün keçərli olan and içmək dövlət qurulmadan öncə insanlar arasında olsa da, dövlətlər qurulduqdan sonra isə dövlətlərarası münasibətlərdə də özünü göstərmişdir. Yemind etmək söz üzərində olduğu kimi, digər əlamətlərlə də icra edilirmiş, barmaqlarını kəsib südə və ya digər içkilərə tökərək içilməsi də bir and funksiyası daşımışdır.(bununla da qan qardaşlığı olurmuş)“And içmək” ifadəsindəki “içmək” sözü də bu görüntünün sözlü şəklidir (4, 214). Qədim Türk xalqları bir-biri ilə razılığa gələrkən sənədləşmə deyil, qədəh əllərinə alaraq and içərlər. Bir növ “anlaşma” sözünün ilkin versiyası kimi çıxış edərək tərəflər arasında özünü göstərən razılaşmadır (6, 1).

“Ant içmə ənənəsi Hun dövləti (M.Ö. 209 — M.S. 93) dönəmində bəlli bir mərasim və ənənə halına gəlmiş göstərilir. Biz bunu Eftalit və Sasani dövlətləri arasındakı andlaşmadan görə bilməkdəyik” (4, 218).

“Çin elçiləri Çan və Mın, Hun hakanı Huhanya Hun dağınaçıxdılar və bir bəyaz at qurban kəsdilər. Hakan səfərlərdə istifadə etdiyi (ən dəyərli) qılıncını əlinə alaraq ucunu şəraba batırdı və bu andlı şərabı Yüeçixanınınbaş tasından hazırlanmış qabla içdi. Çanve Mın Çinə döndükdən sonra saraydakı dövlət adamları belə bir ağır *and* yükü altına girdikləri üçün elçiləri təqdir etdilər və bu anddan qurtulmak üçün tanrıya qurban etməyi təklif etdilər” (2, 279-280).

İslam müəllifləri türklərin and içmə mərasimində qarşısında qabda su olan mis butların qarşısında and içdiklərini qeyd edirlər. Su ilə dolu olan bu qabın altına qadın paltarı, içinə isə qızıl və buğda qoyurlar. And içən “andımı pozarsam, qadın paltarı geyimim olsun, buğda kimi biçsinlər, qızıl kimi sifətim saralsın”, — deyir (2, 280). Bütün Asiya xalqları üçün önəmli sayılan and içmək XIII əsrdən özəl bir mərasim olaraq keçirilmişdir (4, 219).

Yalnız dövlətlərarası, qəbilələrarası münasibətlərdə özünü göstərən andlar sonralar şəxslərarası qardaşlığa, dostluğa çevrilmişdir. Müxtəlif Türk xalqlarında and içmə “obyekti” baxımından üstünlük silaha verilir. Başqırd türklərində isə ən böyük and silaha içilən anddır.

"Yakutlarda and mərasimində qılınc, yaxud tüfəng kimi silahları öpmək adəti vardır. Buretler isə süngü ucunu öpərlər. Yakutların and formulları bir çox folklorçular tərəfindən təsbit edilmiş olduğu halda, bunlarda hər hansı bir silah adına rastlanmır. Bu formullarda atəş, ayı, yaxud at başı, müxtəlif tanrı və qoruyucu ruhlar zikir olunmaqdadır. (2, 282)

"Kitabi-Dədə Qorqud" dastanında qarğış üzərində qurulan andlar XII boyda əl basaraq and içməklə əvəz olunmuşdur (2, 284).

Ümumiyyətlə, andların qarğış şəklində olması müxtəlif xalqlarda - türklərdə, hələ islamiyyətdən əvvəllərdə yaşamış ərəblərdə, və s. özünü göstərmişdir. Qarğışlardan törəmiş bu andlar qədim zamanlar üçün "and" mahiyyəti daşımamış, sonradan qarğış anlamı ilə paralel, daha dəqiq desək, bir az ilkin mənasından uzaqlaşaraq and mənasında formalaşmışdır (2, 285).

Professor Qəzənfər Paşayev andın qarğış mahiyyəti daşımasını ona müqəddəs yanaşmaqdan qaynaqlandığını əsas gətirmişdir. "Buna görədir ki, andı namus, qeyrət, şərəflə bərabər tutmuş, onu pozmaqdansa, ölümü üstün saymışlar. Aşağıdakı misallar dediklərimizi təsdiqləyir: "Ölümüm görəsən", "İki gözüm kor olsun", "Toppuğum yerə dəymiş olsun" — Yəni yalan desəm, ölüm, "Əsgər qaçağı olum" — yəni yalan desəm, çöllərə düşüm, ömrüm boyu qorxu, əzab-əziyyət içində yaşayım". (12, 48). And içmək mərasimində daha çox rast gəlinən ünsür qan və silah olmaqla yanaşı, həmçinin qurbanlar da kəsilir. Barmaq, qoldan qılınc, xəncər kimi silahlarla çətilərək alınan qanın qabda ( and qədəhlərində) qarışdırılıb içki ilə içilməsi iki canın bir-birinə qarışması anlamı ifadə etmişdir. Silahın vacib ünsür olaraq işlənməsi isə qoruyucu mahiyyət daşımışdır: qədim dövr üçün insanın xaricdən gələn zərbələrdən müdafiə olunmasında silahın daşıdığı roldan qaynaqlanmışdır. Burada bu silahın materialının dəmirdən olması, əsas önəm daşımır, -desək, fikrimizcə, yanılmarıq. Çünki and ünsürü olaraq materialı dəmir olan istənilən əşya deyil, məhz silah olması bir daha deməyə əsasa verir ki, silahın qorumaq funksiyası əsas mahiyyət daşımışdır.

Qardaşlaşma zamanı silahla yanaşı qanının da vacib ünsür olduğu danılmazdır. İlk dəfə qardaşlaşma andının qanla olması mənbələrdə İskitlərin adı ilə bağlıdır. Mənbələrdə qardaşlaşma andı iki şəkildə göstərilən mərasim olaraq diqqət çəkir: bir mərasimdə bədənin qan çıxacaq yerindən hər hansı bir alətlə və yaxud qılıncla çəltilir, çıxan qan bir qaba tökülür, qarışıq qanının üzərinə içiləcək əlavə edilir və içilir; digər mərasimdə isə qılıncla dəri çəltilir, qardaş olacaq tərəflər qılıncdakı bir-birinin qanlarını yalayırlar (8, 103).

İskit and mərasimində atın qurban edilməsini də görmək mümkündür. Bu mərasim nəinki insanlar arasında, həmçinin dövlətlər arasındakı and mərasimində də -Hun və Çin dövlətləri arasında keçirilən andlaşmada atın qurban kəsilməsini görürük. (8, 103). Manas dastanına da nəzər yetirsək, burada da and mərasimində atın qurban kəsilməsi və sonra and içmə olduğunu görmək olar. "Qırğız, qazax, noqoy, qıpçaq, türk, arqm, mancu və kalmık başçıları toplaşdılar. Cakıbın qəmbərbozlarından (atlarından) ağ boz qısrağım gətirib qurban kəsdilər, sonra "yaşayası olsaq, bir təpədə yaşayaq, öləsi olsaq, bir çuxura gömülək" — deyə and içdilər (1, 45). Andın digər ünsürlərindən biri də heyvan dərisi və başıdır. Bu and barədə ilk məlumatlara iskitlərdə rast gəlmək olar. Belə andlarda önəmli yer tutan sığır dərisidir. Zərər görmüş kimsə başqasından heyfini ala bilmək gücü olmadıqda bir sığırı kəsər, ətin bişirər, dərini yerə sərər. Qarşısına bişmiş ətləri qoyar, qollarını arxadan bağlar. Ona dəstək olmaq istəyənlər ətdən götürüb sağ ayaqlarını dərinin üstünə basarlar. İmkanından asılı olan sayda at, silahlı əsgər tapacağına, imkansızlar isə özlərini əsgər olaraq qeyd edir, and içirlər. Bu şəkildə qurulan ordu daha möhkəm olur, çünki artıq bu insanlar and içmişdilər (8, 107).

Yakutlar ayı kəlləsinə, ayı olmadıqda at kəllələrinə and içirlər.

And ünsürlərinə hədiyyə alıb hədiyyə vermə adəti də daxildir. İnsanlar xüsusi günlərdə toyda, ad günündə və s. hədiyyələr verirlər. Belə xüsusi günlərdən biri də "qardaşlaşma" günüdür ki, həmin gün də qarşı tərəflər bir-birinə hədiyyələr verir (8, 105).

Digər and ünsür hər hansı bir əşyanın kərtməkdır, kərtilən əşyalara isə: yer, ağac, beşik də və s. daxil ola bilər. "Dədə Qorqud" dastanında bunu daha aydın görmək olar. (8, 105)Eyni zamanda Manas dastanında da and mərasiminin belə şəklinə rast gəlmək olar: "İki igid söyüd çubuğundan tutub dayanmışdılar. Cakıb polad bıçaqla çubuğu tən ortasından kəsdi: "Almambet ilə Manas, Tanrı hüzurunda həyatda və ölümdə bərabər olmaq üçün dost oldunuz. Bir anadan süd əmən əkiz qardaş oldunuz. Andı pozub bir-birinizə xain çıxsanız başınız bu çubuq kimi kəsilsin. Tanrının lənətinə gələsiniz, Umay ana bəlanızı versin!"(1, 147). Daha başqa and ünsürü kimi dəyənək üzərindən atlanmanı götürmək olar, lakin bu element artıq arxaikləşmişdir (8, 105). Görünüş baxımdan yanaşdıqda andlar-yemindlər müxtəlif şəkillərə malikdir. Birinci şəxsin dilindən deyilən andlar- yemindlər də var ki, bu zaman artıq and bir neçə şəxs tərəfindən deyil, bir nəfərin öz-özünə and içməsidir: (8, 105) sözümdə durmazsam ...

Dostlar arasında olan andlar: Yaxın insanlar qanlarını qaba töküb içməklə "qan qardaşlığı" nın təməlini qoyurlar. (8, 101). Digər bir növü isə xalqlar, millətlər arasında olan andlaşmadır. Bu zaman həmin xalqı, qəbiləni təmsil edən insanlar arasında içilən anddır. (8, 101). Ümumi yanaşdıqda görərik ki, yemin etmək üçün insanlar bir-birinə etibarı təmin etmək üçün müqəddəs varlıqlara and içirlər. Yeminlər pozulduqda isə onun əvəzində kasıblara sadaqalar paylamaqla günahlarını yumuş olurlar. "And qədim insanların müqəddəs hesab etdikləri varlıqlara inamı ilə bağlı yaranmışdır. And içmək müqəddəs hesab edilmiş, bir sıra xalqlarda andı pozmaq üstündə ağır cəzalar tətbiq olunmuşdur (10, 277).

Türk xalqlarından olan İrak-Türkman xalqının folklorunu da andsız-yeminsiz təsəvvür etmək olmaz. "Kərkük folklorunda bu qədim janr gah "and", gah "yemind", gah da "qəsəm" kimi tanınır. (12, 48). Şifahi xalq dilindəki andları- yemindləri mənaları baxımdan yanaşdıqda aşağıdakı kimi qruplaşdırmaq olar:

Allahın adı ilə bağlı olanlar: "Allahaq and olsun", "Allahın min bir adına and olsun", "Allah vəkil; bəzilərində qarğış etməklə: "Allah məni daş etsin" "Peygəmbər zaminim, Allah vəkilim olsun", "Vallah, billah", (9, 154) "Allah haqqiyçi", "Peyğəmbərin başıyçi", "Quran haqqıyçi" (12, 49).

Din, imam, peyğəmbərlə bağlı olanlar: "Dinimdə, imanımda, vicdanımda", "İmanım kafirlər olsun", "İmansız ölüm", "Qəbrə imansız girim", "Kafir olum" (9, 154), "Peyğəmbərin başıyçi", "Quran haqqıyçi" (12, 49).

İlkin inanc-inam sistemi ilə bağlı olanlar: "Bu Günəş haqqiyçi", "Bu Günəşə kor baxım", "Ocaq haqqiyçi", "Pirə yemind edirəm" (12, 49).

Bərəkətlə bağlı olanlar: "Duz-əkmək haqqiyçi", "Nemət haqqiyçi", "Bərəkət haqqiyçi" (12, 49).

Digər varlıqlarla, mənəvi dəyərlərlə bağlı olanlar: Yaranma zamanı baxımından sonrakı dövrlərə aid edilən andlara ata-ana, qardaş-bacı, övlad, əmi, dayı, xala, bibi və bu kimi əziz və yaxın adamlarla, namus, qeyrət, şərəf və s. ilə bağlı olanlar daxildir (12, 50). "Babalın boynumda qalsın", "Şərəfimə", (9, 154) "Mərd başıyçin", "Namusumda", "Şərəfimdə", "Canıva yemind olsun", "Adına qəsəm olsun", "Babamın canıyçin", "Qardaşımın canıyçin" (12, 50).

Türkman folklorunu andsız-yeminsiz düşünmək qeyri-mümükündür. Demək olar ki, hər bir kərküklülərin ağzından andlar əskik olmaz. "Alla vəkil (Allah vəkilim olsun), Quran Haqqiyçi (Kur'an-ı Kerim hakkı için), peyğəmbər başıyçı (peyğəmbərə qəsd etdiyim qədər günahkar olayım), Adnan canıvçı,başıvçı (senin başın için), canıvçı (senin canın için) (11, 55).

**Məqalənin aktuallığı.** Daim formalaşmaqda olan cəmiyyətimizdə insanlar bir-birlərinə etibarı təsdiq edən vasitələrdən istifadə etmişlər ki, bu vasitələrdən biri də anddır. Ta qədim zamanlardan müasir dövrümüzə qədər gələn andlar şifahi nitqimizdə işlənmə genişliyi ilə özünü göstərsə də, lakin bəzən əsl mahiyyətindən irəli gələn məsuliyyəti ilkin formada olduğun kimi deyil, bundan bir az uzaqlaşmış, adi şəkildə göstərmişdir, yəni hal-hazırki dönəmdən fərqli olaraq andlar artıq mərasim səviyyəsinə qədər yüksələcək dərəcəyə çatmamışdır. Bu baxımdan andlar və onların texniki icra vasitələri, işlənmə məkanı və s. məsələlər hər zaman öz aktuallığı ilə seçilən məsələlərdən olmuşdur.

**Məqalənin elmi yeniliyi.** Məqalədə, ilk dəfə olaraq İraq-Türkman folkloru materialları digər türk xalqlarının and mətnləri ilə müqayisəli müstəvidə araşdırılır, maraqlı nəticələr əldə edilir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən bakalavr və magistr pilləsində təhsil alan tələbələr, İraq-Türkman folkloru və ümumiyyətlə türk xalqlarının folkloru ilə məşğul olan tədqiqatçılar həm nəzəri, həm də praktik baxımdan faydalana bilər.

## Ədəbiyyat

1.“Manas” dastanı, nəsr variantının qurucusu: Yusupov K. / tərcümə edəni Cəmil A. Bakı: Nurlan, 2009.

2. Abdülkadir İnan. Eski Türklerde ve folklorda “Ant”/ DTCF dergisi. Cilt 6, Sayı4, Ankara Universitesi Dil ve tarih coğrafya fakültəsi dərgisi, 1948.

3. Başar Zeki. Tarihte-tıp tarihinde yemin. Ankara: Sevinç Matbaası, 1973.

4. Ganbat Lkhundev. Moğolların gizli tarihi”nde geçen and içmekle ilgili bazi gelenekler / folklor/edebiyat, cilt:19, sayı:73, 2013/1.

5. Hacıyeva M., Sahin Köktürk. Azerbaycan folklor ve etnoğrafiya sözlüğü, (araştırma görevlisi: Mehebbet Paşayeva). Ankara: 1999.

6. Haluk Berkmen. Türk Kültüründe Ant Geleneği, Türk Dünyası Tarih Dergisi, Yazı 85, Mart 2015,1-4 s.// http://www.halukberkmen.net/pdf/352.pdf.

7. İlhami Durmuş. Türk kültür çevresinde ant / Milli Folklor,Yıl 21, Sayı 84, Ankara.

8. İlhami Durmuş. Türklerde kan kardeşliği ve antla ilgili unsurlar/ Milli Folklor, 2011, Yıl 23, Say 89.

9. Metin Türktaş. Kerkük folkorundan örnekler (yüksək lisan tezisi). Denizli: 1997.

10. Nəbiyev A. Azərbaycan xalq ədəbiyyatı, İki cilddə. I kitab. (Ali məktəb tələbələri üçün dərslik), Bakı: Çıraq, 2009.

11. Önder Saatçi. Irak Türkmen Folklorundan Kerkük Ağzına / Kerkük vakfı kardaşlık dergisi, yıl 17,sayı 65, Ocak-Mart 2015.

12. Paşayev Q. Kərkük folklorunun janrları. Bakı: Elm, 2003.

**У. Дадашова**

## Клятвы (заверения) в фольклоре тюркских народов (на основе Ирако-Туркманских образцов)

## Резюме

История клятв, правдивость которых со временем может быть доказана с

использованием различных средств, восходит к древним временам. На разных этапах истории люди различных слоев населения, используя различные средства, приносили клятвы. Клятвы приносимые со стороны разных людей возвышались даже до уровня церемоний, а также расширялся их круг и они использовались как средство убеждения при формировании межгосударственных отношений.

Разнообразие средств приношения клятвы тоже привлекает внимание: заверения на основе слова, резали пальцы обмакивали их в молоко или другие напитки и затем выпивали, брали на руки чарки, перед бронзовыми идолами с кружкой воды, с оружием в руках, на коне или на медведе, оборачиваясь в шкуры животных, клялись различным божествам и оберегающим духам, огню, натягивая какую-либо вещь, прыгая над палкой и пр. А при нарушении клятвы применялись конкретные наказания,что принималось во время клятвы лицом, которое приносило клятву. С другой стороны они могли смывать свой грех, помогая бедным, или принося жертву.

**U. Dadashova**

## Oaths (assurance) of folklore of the Turkic people (on the basis of Iraqi-Turkmen samples)

## Summary

The history of oaths that reflect proving oneself by using various means to prove the truth in a future intent goes back a more long way. At various stages of history, people from various strata took oaths by using various means. Also, taking of oaths was even scaled up to the level of ceremony and was celebrated by individual persons, and the scope of oaths was expanded and they were used as an evidential mean in formation of international relations. The diversity of means of taking oaths is also one of the attracting points: taking an oath with a word; cutting some part of fingers and putting into milk or other drinks and then drinking it; taking a glass in hand; taking oaths in front of cooper idols with water or for the sake of a weapon, fire, bear or horse head, animal skin, various gods and protecting spirits; by notching any item; by jumping over a bludgeon and etc. And there are specific punishments determined for breaking oaths, which are accepted by the person taking an oath during the oath-taking process directly. On the other side, they confess their sins by alms-giving or sacrificing animals for god. It is impossible to imagine the folklore of Iraqi-Turkmen people who are also Turks without oaths that may be divided into various groups by taking into account the contents of meanings.

**Redaksiyaya daxil olub:** 03.05.2019